# Azərbaycan 8 noyabr Zəfəri ilə regionda sabitlik və tərəqqini təmin edib

***Bu** il 44 günlük Vətən müharibəsində erməni faşizmi üzərində qazanılan qələbənin 5-ci ildönümüdür. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov əməkdaşımızla söhbətində bu əlamətdar tarixi hadisə ilə bağlı fikirlərini bölüşüb.*





**–44 günlük Vətən müharibəsindəki böyük qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirləri ilə torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoyuldu, ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edildi. Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində xüsusi fəaliyyəti olan təşkilatın sədri kimi bu qələbələrin Azərbaycanın tarixində oynadığı rolu necə qiymətləndirirsiniz?**

–44 günlük Vətən müharibəsindəki qələbə Azərbaycan xalqının və dövlətinin tarixində, onun gələcək taleyinin müəyyən edilməsində həlledici rol oynadı. Bu qələbə sayəsində Azərbaycan sadəcə işğaldakı torpaqlarını azad etmədi, həm də özünü müstəqil dövlət olaraq növbəti dəfə tarix qarşısında təsdiq etdi. Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi bu böyük qələbə ilə bir daha sübut etdi ki, ordumuz öz xalqını, dövlətinin ərazi bütövlüyünü qorumağa qadirdir. Qarabağ zəfəri ilə Azərbaycan dövləti öz suverenliyini də bərpa etmiş oldu.

Qələbə Azərbaycana siyasi baxımdan da böyük dividendlər qazandırdı, diplomatik sferadakı mövqeyini möhkəmləndirdi. Azərbaycan danışıqlar masasına qalib tərəf kimi əyləşdi. 2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatının timsalında Ermənistan kapitulyasiya sənədini imzaladı ki, bu da diplomatiyamızın tarixi uğurudur.

Qələbə Azərbaycanın nüfuzunun beynəlxalq müstəvidə ciddi şəkildə artmasına, qlobal güclərin münasibətinin əhəmiyyətli dərəcədə dəyişilməsinə səbəb oldu.

Vətən müharibəsindəki qələbə milli qürur, özünəinam hissini artırdı. Qalib xalq, qalib dövlət imici post-müharibə dönəmindəki proseslərə daha qətiyyətlə yanaşmağımızı təmin etdi. Bir sözlə, bu qələbə xalqımızın və dövətimizin həyatında müsbət mənada yeni bir dönəmin başlanğıcı oldu.

**–Bəzən yanlış olaraq rəhbərlik etdiyiniz təşkilatın fəaliyyəti yalnız İkinci Dünya müharibəsi ilə məhdudlaşdırılır. Halbuki bu gün təşkilatın sıralarında Əfqanıstan, hər iki Qarabağ müharibəsinin veteranları və digər kateqoriyadan olan veteranlar təmsil olunurlar. Müxtəlif kateqoriyadan olan veteranlarla işin qurulması, onların qarşılaşdıqları problemlərin həlli barədə nə deyə bilərsiniz?**

–Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı adından da göründüyü kimi, həm müharibə, həm də əmək və Silahlı Qüvvələr veteranlarını əhatə edir. Bu baxımdan təşkilatın fəaliyyətini yalnız İkinci Dünya müharibəsi veteranları ilə əlaqələndirmək yanlışdır. Çünki bizim təşkilatda həm Qarabağ, həm də sovet dönəmində məhəlli müharibələrdə iştirak edən şəxslər təmsil olunurlar.

Veteranlarla işin günün tələbləri səviyyəsində qurulması hər zaman vacib və aktual məsələlərdən olub. Bu gün biz veteranlarla işimizi daha çevik və praqmatik baxımdan faydalı şəkildə qurmağa çalışırıq. Hər şeydən öncə, onların arzu və istəkləri ilə maraqlanır, üzləşdikləri problemləri müəyyən edirik. Bundan sonra həmin problemlərin həlli istiqamətində konkret addımlar atır, həllinə cəhd edirik. Bunun üçün ilk növbədə əlaqədar dövlət qurumları qarşısında məsələ qadlırır, həmin veteranla bu qurumları birbaşa əlaqələndirməyə çalışırıq. Müşahidələr göstərir ki, bir sıra problemlərin kökündə veteranların üzləşdikləri çətinliklə bağlı lazımi dövlət qurumuna müraciət etməmələri dayanır. Buna görə də biz dövlət qurumları ilə veteranlar əlaqələndirir və lazım gələrsə, həmin qurumlar qarşısında təkliflərlə çıxış edirik. Məqsədimiz veteranları narahat edən məsələlərin qısa zamanda həlli, onların dövlətimizin imkanlarından, sosial qayğı siyasətindən maksimum faydalanmasını təmin etməkdir.

Veteranların dövlət maraqlarımız, milli marqlar ətrafında səfərbər edilməsi, onlarla bu yöndə ardıcıl iş aparılması da fəaliyyətimizdə mühüm yer tutur. Çünki heç kimə sirr deyil ki, Vətən müharibəsindən sonra anti-Azərbaycan qüvvələr aktivləşib. Onlar cəmiyyət daxilində də müxtəlif gərginliklər yaratmağa çalışırlar. Bizim isə bir təşkilat olaraq qarşımızda duran əsas vəzifələrdən biri bu cür süni gərginliklərin baş verməməsi üçün veteranlar və gənclər arasında aktiv iş aparmaq, onların dövlətimiz, Prezidentimiz ətrafında sıx birləşməsini təmin etməkdir.

**–Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfər Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaradıb. Bununla yanaşı, ölkəmizin dünya birliyindəki mövqeyi daha da möhkəmlənib. 5 illiyini qeyd edəcəyimiz Zəfərin təşkilatınızın dünya ölkələrinin veteran təşkilatları ilə əlaqələrə hansı təsirləri olub?**

–Təbii ki, 44 günlük Vətən müharibəsindəki qələbə Cənubi Qafqazda yeni reallıqlar yaratmaqla yanaşı, beynəlxalq münasibətlər sistemində də ölkəmizlə bağlı ciddi yeniliklərə yol açdı. 8 noyabr Zəfəri göstərdi ki, Azərbaycan sadəcə iqtisadi deyil, həm də hərbi regionun lider dövlətidir və Cənubi Qafqazın gələcək taleyi əsaslı dərəcədə Azərbaycandan, onun mövqeyindən və yürütdüyü siyasətdən asılıdır. Bu qələbə dünyanın Azərbaycana baxışını da ciddi şəkildə dəyişdi. Bu günə qədər Azərbaycanın torpaqlarının işğal altında qalmasından istifadə edərək dövlətimizə siyasi, iqtisadi və digər müstəvilərdə təzyiq göstərməyə çalışan qlobal güclər, 8 noyabr Zəfərindən sonra bu imkandan məhrum oldular. Onlar Azərbaycana təzyiq göstərmək üçün bu günə qədər istifadə etdikləri imkan və vasitəni birdəfəlik itirdilər. 8 noyabr Zəfəri Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırdı. Vaxtilə dövlətimizin gücünə şübhə ilə yanaşan, onun daha bir neçə il məğlub statusunda qalacağını güman edən güclər, 8 Noyabr zəfəri ilə məyus oldular. Onların Azərbaycanı siyasi-psixoloji təzyiq içində saxlamaq siyasəti ortadan qalxdı. Dünya qalib Azərbaycan gerçəyi ilə barışmaq məcburiyyəti qarşısında qaldı.

Biz Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq hər zaman dünya veteran təşkilatları ilə sıx əlaqələr qurmağa çalışmışıq. Çünki bu əlaqələr bizə veteranlarla bağlı məsələlər ətrafında geniş fikir və təcrübə mübadiləsi aparma, həm də Azərbaycan həqiqətlərini daha geniş miqyasda təbliğ etmək imkanı qazandırır. Biz işğal dönəmində digər veteran təşkilatlarının nümayəndələri ilə görüşlərimizdə Ermənistanın işğalçılıq siaysətindən bəhs edir, Azərbaycan həqiqətlərinin təbliğinə xüsusi diqqət göstərirdik. Bu gün isə biz qalib xalq, qalib dövlət olaraq günümüzün həqiqətlərini qürur hissi ilə, qələbə sevinci ilə təbliğ edirik.

Keçirdiyimiz görüş və tədbirlərdə 8 noyabr Zəfəri, eləcə də işğaldan azad edilmiş ərazilərdə dövlətimizin apardığı abadlıq işləri haqqında geniş məlumat verir, beynəlxalq birliyi bununla bağlı məlumatlandırırıq. Nümunə olaraq qeyd edim ki, bu ilin aprel ayında İkinci Dünya müahribəsində faşizm üzərindəki qələbənin 80 illiyi münasibətilə Dağıstanda keçirilən beynəlxalq Forumda 8 noyabr Zəfərinə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin bu müharibədə göstərdiyi qəhrəmanlıqlara diqqət çəkdik. Çıxış və müsahibələrimizdə vurğuladıq ki, 8 noyabr Zəfəri xalqımızın tarixi qəhrəmanlıq ənənəsinin davamıdır və bu qələbə bütün anti-Azərbaycan qüvvələrinə verilən tarixi mesaj, tarixi cavabdır.

Təbii ki, bütün bunlar Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sıralarının genişlənməsinə müsbət təsir göstərir. Belə ki, təxminən son bir ildə üç mindən çox Vətən müahribəsi iştirakçısı təşkilatımızın sıralarına qatılıb ki, bu da bizi sevindirir. Bildiyiniz kimi, 44 günlük Vətən müharibəsində qələbənin əldə edilməsində gənclərimizin milli vətənpərvərlik ruhu həlledici rol oynadı. Bu həqiqət Müzəffər Ali Baş Komandan İlham Əliyevin də çıxışlarında öz əksini tapıb. Cənab Prezident müsahibə və çıxışlarında dəfələrlə qeyd edib ki, qələbə Azərbaycan gəncliyinin gücü, qətiyyəti, vətənpərvərliyi, milli-mənəvi dəyərlərə bağlılığı sayəsində qazanılıb. Bu, Azərbaycan gəncliyinə, onun qəhrəmanlığına, vətən qarşısındakı xidmətlərinə verilən ən yüksək qiymətdir.

Onu da qeyd edim ki, veteranlıq xüsusi və şərəfli status olmaqla yanaşı, həm də məsuliyyətdir. Bu məsuliyyəti hər kəsin, hər bir veteranın dərk etməsi, bu məsuliyyətdən irəli gələn məsələlərə xüsusi həssaslıqla yanaşması vacibdir. Veteranlar cəmiyyətimiz və gənclərimiz üçün örnəkdir. Bu baxımdan onların atdıqları hər addım, işlətdikləri hər ifadə diqqət mərkəzində olur. Gənclər, yeniyetmələr veteranlara baxaraq onların davranışlarını nümunə götürürlər. Biz veteranlarla görüşlərimizdə tez-tez bu həqiqəti yada salır, onları bundan sonra da nümunəvi davranışlar sərgiləməyə çağırırıq. Təəssüflər olsun ki, nadir hallarda, veteranlar arasında hansısa məsələ ilə bağlı aqressiv davranış sərgiləyənlər olur. Onlar öz arzu və istəklərini qeyri-hüquqi müstəvidə gerçəkləşdirməyə çalışırlar. Halbuki, Azərbaycan hüquqi dövlətdir və burada hər bir məsələ ancaq və ancaq hüquq müstəvisində həll edilə bilər. Buna görə də hər hansı problemlə üzləşən veteranlarımızla müvafiq dövlət qurumları arasında əlaqə yaratmağa çalışır, hər bir narazılığın hüquqi müstəvidə həllinə cəhd edirik. Bu, təşkilatımızın gündəlik fəaliyyətinin bir hissəsidir. Veteranlara xidmət bizim borcumuzdur. Çünki gənclərin vətənpərvərlik tərbiyəsinə təsir göstərən əsas amillərdən biri də veteranlara münasibətimiz, onlara göstərdiyimiz qayğı və həssaslıqdır. Bu münasibət hər bir yeniyetmə, hər bir gəncə mesajdır. Onlar bu münasibət sayəsində anlayırlar ki, vətənə xidmət müqəddəsdir və vətən qarşısında xidməti olan insana hər kəsin sonsuz ehtiram göstərməsi vacibdir.

Bu gün dövlətimiz şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara yüksək diqqət və qayğı göstərir. Həm Prezident İlham Əliyev, həm də Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə bu istiqamətdə mühüm layihələr, geniş dövlət proqramları həyata keçirilir. Biz təşkilat olaraq həm də dövlətimizin şəhid ailələri, veteranlarla bağlı dövlət proqramları haqqında cəmiyyəti məlumatlandırır, hansısa təsadüf nəticəsində bu proqramlardan yararlana bilməyən veteranlarımızın bundan faydalanmasını köməklik göstəririk.

Bizim Azərbaycan Silahlı Qüvvələri, ayrı-ayrı qoşun növləri ilə geniş əməkdaşlığımız mövcuddur. Keçirdiyimiz əksər tədbirlərdə həm Müdafiə Nazirliyinin, həm də Dövlət Sərhəd Xidməti və DİN-in Daxili Qoşunlarının zabit və kurstantları iştirak edir. Biz onlarla birlikdə gənclərlə görüşlər keçirir, qəhrəmanlarımızın tanıdılması, hərb tariximizin daha dolğun öyrənilməsi istiqamətində birgə fəaliyyət ortaya qoyuruq.

Hərbi hissələrdə görüş və tədbirlərin keçirilməsi, veteranların hərbi hissələrdəki şəxsi heyət qarşısındakı çıxışlarının təmin edilməsi, hərb tariximizlə bağlı əlamətdar günlərdə təşkilatımızda birgə tədbirlərin keçirilməsi və s. bizim Azərbaycan Silahlı Qüvvələri ilə birgə fəaliyyətimizin əsas istiqamətlərindən biridir.

İnanıram ki, yaxın gələcəkdə təşkilatımızla Silahlı Qüvvələrimiz arasındakı əlaqələr daha da genişlənəcək, bu əməkdaşlıq daha çox gəncin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə verəcək.

**Müsahibəni apardı:
Mehparə ƏLİYEVA,
"Respublika".**

Respublika .-2025.- 12 iyun (№119).-